**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**“Naxçıvan Muxtar Respublikasının cəzaçəkmə müəssisələrində cəza çəkən narkoloji xəstə məhkumların məcburi müalicəsinin aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 1 mart tarixli 25 nömrəli qərarında dəyişikliklər edilməsi barədə**

“Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Xroniki alkoqoliklərin və narkomanların ixtisaslaşdırılmış tibb müəssisələrində saxlanılması rejimi, normativləri və müalicəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 1997-ci il 5 dekabr tarixli 135 nömrəli, “İxtisaslaşdırılmış tibb müəssisələrində məcburi müalicənin Şərtləri və Qaydaları”nın təsdiq edilməsi haqqında” 2006-cı il 26 yanvar tarixli 20 nömrəli və “Cəzaçəkmə müəssisələrində cəza çəkən narkoloji xəstə məhkumların məcburi müalicəsinin aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2016-cı il 28 yanvar tarixli 14 nömrəli qərarlarında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 30 avqust tarixli 364 nömrəli qərarının 3-cü hissəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 1 mart tarixli 25 nömrəli qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının cəzaçəkmə müəssisələrində cəza çəkən narkoloji xəstə məhkumların məcburi müalicəsinin aparılması Qaydaları”nın 5.4-cü, 5.6-cı və 5.7-ci bəndlərində “tibbi rəy” sözləri “rəy” sözü ilə, 5.8-ci və 5.9-cu bəndlərində “tibbi rəyi” sözləri “rəyi” sözü ilə əvəz edilsin.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri: Ə.Baxşıyev**

«19» sentyabr 2018-ci il

№ 157